# İbtidai sinif şagirdlərində oxu təlimi

**Günay Məlik qızı Butayeva**
*Bakı Qızlar Universiteti*
**E-mail:** gunayim.buta@mail.ru

**Rəyçilər:** filol.ü.e.d., prof. Q.İ. Məşədiyev,
p.ü.f.d., dos. G.V. Sultanova

**Açar sözlər:** texnologiya, oxu təlimi, kiçik məktəbli, elektron resurslar
**Ключевые слова:** технология, обучение чтении, школьники, электронные ресурсы
**Key words:** technology, reading training, younger pupils, electron resources

Bəşəriyyətin həyat tərzini formalaşdırılması, cəmiyyət arasında yüksək mədəniyyət yaradılması üçün elmin inkişafı önəmlidir. Belə ki, sürətlə davam edən inkişaf gənc nəslin sağlam böyüməsinə öz təsirini göstərir. Uşaqların sağlam əqidəli bir vətəndaş kimi yetişməsinə zəmin yaradır.

Məktəbdə təhsil almağa başlayan şagirdlərin çoxu müəyyən qədər dinləmə və danışma bacarıqlarına malik olsa da, hərfləri tanımır və əlbəttə ki, oxuya və yaza bilmir. Cümlənin sözlərdən, sözün isə səslərdən ibarət olması haqqında uşağın təsəvvürü olmur (1, s. 187).

Oxu təlimi gənc nəslin təlim-tərbiyəsində mühüm rol oynayan vasitələrdən biridir. Bu vasitənin özünəməxsus məzmunu var ki, bu məzmundan da metod priyom və vasitələr yaranır. Bu metod, priyom və vasitələr şagirdlərin bilik, bacarıq və vərdişlərə sahib edir. Bunlar da şagirdlərdə düzgün, sürətli, şüurlu oxu vərdişlərinə zəmin yaradır, uşaqlarda ana dilinə, kitab oxumağa məhəbbət hissini tərbiyə edir, bir sözlə, şagirdin ümumi inkişafını yüksəldir (3, s. 82).

Oxu təliminin zamanı şagirdlərin kitab oxumaq bacarığını inkişaf etdirilir. Onlar oxuduqları əsərin məzmunu haqqında sərbəst fikir söyləyirlər. Əsərdə iştirak edən personajların hərəkət və davranışını qiymətləndirirlər. Onların nitqləri ilə tanış olurlar.

Müəllimlər oxu təlimi dövründə şagirdlərin rabitəli nitqə sözlərin leksik və qrammatik qaydalarda birləşməsini nəzərdə tuturlar. Daha sonra sözlərin cümlədə işlənmə yerini, cümlənin fikir ifadəliyində funksiyası və ədəbi tələffüz qaydalarına da diqqət yetirirlər (3, s. 112).

Əlifba təlimi dövründə rabitəli nitq üzrə işlər ən çox hallarda dərslikdəki şəkillər üzərində aparılır. Hətta müəllimlər dərslikdəki şəkillərə aid bir neçə suallar da qoyurlar. Müəllimlər suallar əsasında şagirdlərdən rabitəli cümlələr işlətməyi və mətnin məzmununu danışmağı tələb edirlər. Qarşıya qoyulan bu tələblər şagird təfəkküründə və nitq inkişafında mühüm rol oynayır (3, s. 112).

Oxu təlimi zamanı şəkillər üzrə işləmək kiçik məktəblilərin təxəyyülündə təsəvvürlərin canlanmasına kömək edir. Kiçik məktəblilərin müşahidəçilik qabiliyyətini inkişaf etdirir, daha diqqətli olur, onların cümlə qurmaq vərdişlərinə zəmin yaradır.

Oxu təlimi aşağıdakı bölgülər üzərində həyata keçirilir.

1. Heca üsulu ilə sözlərin oxusu.
2. Sözlərin bütöv oxusu.

Heca üsulu ilə sözlərin oxusu üzərində aparılan məşğələlər əsasən əlifba təlimi dövründə təşkil olunur. Məşğələlərin, məqsədi odur ki, şagirdlərdə qiraət vərdişləri yaransın, onlar sözlərin düzgün, şüurlu oxumaq qaydalarını öyrənsinlər (3, s. 112).

Oxu təlimində sözlərin heca ilə öyrədilməsi, hərflərin sözdə sıralanmasına və eləcə də səslərin ayrılması və birləşdirilməsinə daha yaxşı imkan yaradır ki, bu zaman hecalar uzadılarkən hərflər dəyişmir, nə də başqa səsə keçmir. Heca səsləri hecanın sonunda və əvvəlində olduğu kimi tələffüz edilir. Bu prinsip sözlərin oxunuşunda da özünü göstərir. Şagirdlər hecanın vasitəsilə qiraət vərdişlərinə sahib olurlar (3, s. 113).

Dərs ilinin birinci həftəsində müəllimlərin üzərinə çox böyük iş düşür. Müəllimlər şagirdlərin qabiliyyətini, yaradıcılığını, düşüncəsini, təlimə hazırlıq vəziyyətini öyrənməyə başlayır.

Bu dövrdə əsasən müəllimlə işləmək, müəllimi dinləmək, suallara cavab vermək, dərsdə fəaliyyət göstərmək, əşyalarla tanış olmaq, şəkilləri ifadə edən sözləri işlətmək, əlifba dərsliyindəki şəkillər üzrə söhbət aparmaq və söhbətləri dinləmək əsas götürülür .

Oxu vərdişləri - sadə süjetli bədii və elmi kütləvi əsərlər, eləcə də folklor nümunələri üzrə aparılır. Məlumdur ki, I-IV siniflərdə bir neçə variantlı oxu vərdişlərindən istifadə olunur. Ucadan oxu, rəvan oxu, sərbəst oxu, müstəqil oxu, şüurlu oxu, səssiz oxu, dialoqlu oxu, nəql, sual, nida, əmr, müxtəsər və geniş cümlələr üzrə oxu, təbiət üzrə oxu, təbiət təsviri və təbiət hadisələri üzrə oxu, epizodlar üzrə oxu, rollar üzrə oxu, müşahidə məqsədi nəzakətli oxu (suallar nəzədə tutulur) şəkil əsasında oxu, qəhrəmanın həyat səciyyəsi üzrə oxu, xorla oxu, maraqlandığın hissə üzrə oxu, xalqın arzu və istəyi üzrə oxu, bədii təsvir və yaradıcılıq üzrə oxu, leksik oxu, orfoqrafik, fonetik, qrammatik oxu və s. (3, s. 67).

Təkcə kitablardan deyil, internet resurslarından da məlumatlar əldə edirlər. Texnologiya vasitələri insanların işlərini asanlaşdırdığı kimi onların cəmiyyətə mənfi təsirləri də var. Əsasən də kiçik məktəblilərin kompüter, telefon, internet kimi yeni texnologiya vasitələrindən hədsiz dərəcədə istifadə etməsi və düzgün istifadə etməməsi onların gələcək nailiyyətlərinə mənfi təsir göstərə bilər.

Şagirdlər internetdən istifadə edərkən onlar üçün hər şey həll edilmiş olur. İnternet vasitəsilə ev tapşırıqlarının cavabını tapa bilirlər. Uşaqlar internetə daxil olaraq ev tapşırıqlarının cavabının tapılması öyrədilsə və yaxud hər hansı bir məlumatı özü tapmadan onu hazır əldə etsə, ensiklopediyalardan da istifadə etməyəcək. İnternet vasitəsilə onu oxumaq onlar üçün daha əlverişli ola bilir .

Elektron resurslardan məhdud qədər istifadə etmək olar. Bu zaman uşaqlar rahata öyrəşməz, kitablardan oxumağa çalışarlar. Bəzi məlumatları telefon və yaxud kompyuter vasitəsilə oxumaqdansa onun kitabını oxumaq onlar üçün daha məsləhətlidir. Valideynlər olaraq buna fikir verməliyik. Nə qədər şüadan uzaq olsalar, sağlamlıqları üçün bir o qədər yaxşı olar .

**Məqalənin aktuallığı.** Oxu təlimi kiçikməktəblilərdə təkcə məntiqi təfəkkürü deyil, onlarda yaradıcı təfəkkürdə formalaşdırır. Oxu zamanı həmin mətn oxunulur və iş onunla bitmir. Bu zaman onların nitqi formalaşır, oxuduqdan sonra bildikləri məlumatlara yeniləri də əlavə edilir, kitablarla işləməyi bacarır, təsəvvüründə oxuduqlarını canlandırır. Oxu zamanı texnikadan da istifadəni deməsək olmaz. Çünki, uşaqlar həmin kitabı internetdən oxumağı daha əlverişli sayırlar. Onlar üçün internetdən bu cür istifadə daha rahat olur.

**Məqalənin elmi yeniliyi.** Kçik məktəbliləri daha çox kitab oxumalarına sövq etməliyik. Onların nitqinə mənfi təsir edəcək, oxu zamanı rəvanlığını pozacaq amilləri aşkar etməliyik. Bu məsələ ilə bağlı tədqiqatlar aparılır. Məqalənin elm yeniliyi də məhz bu kimi məsələlərin mümkün həlli yollarının göstərilməsidir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar faydalana bilərlər.

## Ədəbiyyat

1. N. B. Cəfərova. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası: Dərslik. I hissə. Bakı: ADPU-nun nəşri, 2016.
2. A. N. Rəhimov. Ana dilinin tədrisi metodikası (İbtidai siniflərdə). Bakı: Nurlan, 2003.
3. B. Tağıyev. Oxu təlimi. Bakı, 2006.

**Г.М. Бутаева**

## Обучение чтение школьникам начальных класс

## Резюме

Чтение развивает речь школьников, создаёт у них впечатление, обогащает словарный состав, подтверждает и обогащает, увеличивает излагать мысли в устном и письменном в виде, чтение развивает у школьников сознание, а также создаёт сказочно рассказывать содержание прочитанного материала,

**G.M. Butayeva**

## Reading training to the junior school students

## Summary

Reading improves the student's speech and create better imagination in their brain, enlarges, specifies and makes more active their vocabulary and improves their ability to express their ideas orally. On the other hand, reading creates the ability of conscious, correct, fast and expressive reading and well retelling the context of the material that has been read by the student.

**Redaksiyaya daxil olub:** 25.10.2019